**Kəmalə Abiyeva**

# Vətən savaşı

*Əsgərim, İgidim, ay oğul balam,*
*Səninlə yaşayır hər Vətən daşı.*
*Bacarsam əlində silahın ollam*
*Vətən savaşıdır, Vətən savaşı.*

*Vətən sevgisini yaşayır torpaq,*
*sevincə bürünüb gözünün yaşı.*
*Qələbə ətrinə qovuşur torpaq*
*Vətən savaşıdır - Vətən savaşır.*

*İlhamla irəli möhtəşəm ordum*
*Azadlıq havası oldun bu yurdun.*
*Canınla, qanınla, rəşadətinlə,*
*Gələcək günlərə yazılır adın.*

*Ali baş komandan yumruğun qalxsın*
*önündə əyilir düşmənin başı.*
*Bir damla türk qanı yerdə qalmasın,*
*Vətən savaşıdır, Vətən savaşı.*

*Əlində ucalan bayraq Vətəndi!*
*Ayağın altında torpaq Vətəndi!*
*Bu haqq savaşında müzəffər ordum,*
*Qüdrətli ədalət -Zəfər sənindi*

Ədalət.-2023.-8 noyabr, №43.- S.6.